**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**02.12.2019-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 3**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. İctimai səhiyyə fakültəsi kafedralarında tədris prosesinin, tədris-metodik sənəndlərinin yoxlanması və nəticələri barədə prof. İ.Ağayevin hesabatı qənaətbəxş qiymətləndirilərək kafi hesab edilsin;

II. Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, prof. M.Kazımovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş qiymətləndirilərək kafi hesab edilsin.

III. Kafedra müdirlərinə tapşırılsın ki:
1. Kafedralarda açıq dərslərin və mühazirələrin aparılmasında innovativ üsullardan, müasir interaktiv metodlardan istifadə olunmasına nəzarət gücləndirilsin;
2. İmtahan sessiyası başlanana qədər kafedralarda tədris olunan fənnin proqramda nəzərdə tutulmuş bilik və bacarıqlarının tələbələr tərəfindən mənimsənilməsinə diqqət artırılsın;
3. Yekun qiymətləndirmə vərəqələrinin səliqəli tərtibinə, düzəlişlərə yol verilməməsinə və yalnız tam doldurulmuş vərəqələrin tələbələr tərəfindən imzalanmasına nəzarət edilsin;
4. İmtahan Mərkəzinə təqdim olunan testlərin qaydalara uyğun olaraq düzgün tərtib edilməsinə diqqət artırılsın;
5. Kafedralarda elmi iş yerinə yetirən doktorant və dissertantların illik hesabatları dinlənilərək, həmin iclasın protokolundan çıxarış müvafiq Problem Komissiyaya təqdim edilsin;
5.1. Doktorant və dissertantların hesabatı, hesabat ili üçün təqvim planında nəzərdə tutulmuş məsələləri əhatə etməlidir.

IV. Problem Komissiyaların sədrlərinə tapşırılsın ki:
1. Kafedralardan təqdim olunmuş doktorant və dissertantların illik hesabatları dinlənilərək, iclasın protokolundan çıxarış FEŞ-na tövsiyyə olunsun.

V. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva